# SÖZÜN RƏNGBƏRƏNG QATLARI

"Ulduz" jurnalının şöbə müdiri, yazar-publisist Hicran Vaqif qızı Hüseynovanın "Yaşıl eskiz" ("Azər" nəşriyyatı, 2004) kitabına müxtəlif janrlarda əsərləri daxil edilib. Kitaba müəllifin ali məktəb müəllimi olmuş Aydın Dadaşov "Məktub yetişdi" adı altında genişhəcmdə təhlil səciyyəli ön söz yazıb.

Kitabı gözdən keçirəndə Hicran Hüseynovanın yazıçılıq təbəqəsi altında şairliyinin də gizləndiyini görürsən. Yəni onun nəsrində həyata, dünyaya qarşı bir şairanə duyum tərzi hiss olunur. Təsvirə gətirdiyi adi həyati mənzərəni ictimai aləmə proyeksiya eləmək fonunda maraqlı paralellər, metaforik düşüncə tərzi ortaya çıxır. Əlbəttə, bunu görmək, duymaq üçün oxucudan huşyar olmaq, ayıq və həssas düşünə bilmək tələb olunur. Sıradan bir yazı kimi oxumaqla nəsrin alt təbəqəsindəki poetik layları açmaq mümkün olmaz.

O başqa məsələdir ki, kitabın sonluğuna yaxın Hicran xanımın şeirləri də vardır. Amma çoxları kimi o, yazdığı şeirləri əvvəldə verib gözə soxmur, "mən də şairəm" demir. Şairlik onun təkcə şeirlərindən yox, nəsrindən də özünü büruzə verir. Əslində dünyanın ən yaxşı yazıçıları da elə poetik təfəkkür sahibləridir. Bədii təfəkkürü olmayanlar yazıçılıq da edə bilməzlər. Quru, şablon təsvirlər prinsipcə publisistikadan o tərəfə getmir. Hicran Vaqif qızıHüseynovanın "Nur" adlı pritçasını oxuyub, buradakı çıraq (lapma) obrazlarının müqayisəli təsvirini sərf-nəzər etdikdə, müəllifin sətiraltı formada bu analogiyanı ictimai sferaya köçürməklə həyat həqiqətini çatdırmaq istədiyini düşünürsən. Atalar sözümüz bu anda xatirimizdə canlanır: "altı təzək, üstü bəzək".

"Çırağın od adlı sevgisinin isindirmədiyi - işıqlandırmadığı bir kölgə qalmamışdı. Təkcə özündən savayı.İşığın kölgəsi də olur axı. Kölgəsi öz dibinə düşürdü çırağın...". Hicran xanımın təsvir elədiyi bu köhnə çıraq, göründüyü kimi, ancaq özünə işıq salmır, yerdə qalan hər tərəfi işıqlandırır. Daha sonra təsvir olunur ki, adamlar bu çırağı götürüb yerinə təzə gecə lapması qoydular; "görünüşcə çox qəşəng idi bu lapma, əyilib əllərini irəli uzadan qəşəng qızı xatırladırdı... Onun zəif işığı özünü və qoyulduğu kiçik tumbanı işıqlandırırdı". Fikir verin, Hicran Hüseynova pritçada köhnə çıraq və təzə lampa təsvir etməklə əslində bunların müqayisəsini aparır və bu müqayisə üsulu ilə cəmiyyətdə baş verənlərə də metaforik olaraq nəzər yetirməyi mətnaltı işarələrlə tövsiyə edir.

Hicran Hüseynovanın "Nur" pritçasındakı bu təsviri A.Şaiqin "Zəhmət və Zinət" mənzuməsindəki Zəhmət və Zinət adlı çarıqlarla da müqayisə etmək olar. "Nur"dakı köhnə çıraq obrazı zəhmətkeş, insanlara nurun timsalında işıq - xeyirxahlıq paylayan sadə insanla müqayisə etmək olar. Özündən başqa heç nəyə işığı düşməyən təzə gecə lampasını isə ancaq özünü düşünən, özünün şəxsi mənafeyini güdən harın, lovğa, bəzək-düzəyə meylli yüngülxasiyyətli adamlarla müqayisə etmək olar. Çox təəssüf ki, cəmiyyətdə də çox vaxt ikincilərin naxışı gətirir, yaxşılara isə sağlığında qiymət verilmir. Mənə elə gəlir ki, Hicran xanım cəmiyyətdə köhnəni atıb, yerinə yaxşı oldu-olmadı təzəsini alıb qoymaq ənənəsini təsvir yolu ilə mətn ardında bu kimi sosial məsələlərə eyham vurmaq istəmişdir. "Solo" pritçasında da Hicran Hüseynova demək olar, ictimai haqsızlığa qarşı çıxış edir.

Xor ifası ilə solo ifasını qarşılaşdıran müəllif xorda oxumağı əslində kiçik kollektiv timsalında cəmiyyət üzvləri kimi səciyyələndirmişdir. Fərdi istedada (solo ifasına) "xor"da xor baxılmasının eybəcərlikləri sətiraltı olaraq tənqid hədəfinə çevrilir. "Xor özü də kiçik cəmiyyətdir axı" deyən müəllifin nəyə eyham etdiyi elə bu ifadədən boy göstərir.

"Yaşıl eskiz" pritçasında isə budağından üzülən yaşıl yarpağın timsalında söylənilir hər şey: "İndi yarpaqlara, qopub ayrıldığı budağa baxır, kənardan hər şeyi daha aydın gördü. Heç demə, tanış yarpaqların hər iki üzü simmetrik deyilmiş (ürəyinə çoxdan dammışdı). O isə simmetriya qanunlarını bu səfeh yarpaqların timsalında öyrənmişdi...". "Hər iki üzü simmetrik olmayan" yaşıl yarpaqların simasında cəmiyyətimizdə də özünü doğruluq etalonu olaraq göstərən bəzilərinin hər iki üzünün simmetrik olmadığını - necə deyərlər, "üzə güzgü, dalda qayçı" olduqlarını yazıçı təxəyyülü ilə çatdırmaq istəyir.

"O böyük xoşbəxtlik" adlanan pritçada isə Hicran Hüseynova Yolçu obrazıçının simasında əslində ümumiləşmiş halda hər birimizin yolçu - yəni ömür yolçusu olduğumuzu təqdim edir: "O, xoşbəxtliyin özünü tapmalıydı, tapıb əlinə götürməli və ömrü boyu (ya heç olmasa yarım ömür) bunu hiss etməliydi...", Əslində, bu, bir həyat düsturudur hər kəs üçün; hər kəs ömrünün müəyyən mərhələsində xoşbəxtliyini tapıb ona qovuşmalıdır.

Yazıçı kimi Hicran Hüseynovanın oxucularına aşılamaq istədiyi ideya budur. Həyatın rəngini, fəlsəfəsini bu cür çatdırır müəllif: "Yolçu yoluna davam etdi. Amma bu yol bir kəlmədə ifadə olunası yol deyildi; ayları, illəri oğurladı yolçunun ömründən bu yol. Rənglər, fəsillər dəyişdi o, yolda olduğu illərdə. Bayramlar, matəm günləri dəyişdi təqvimlərdə, dəyişdi tarixlər də, dəyişdi təqvimlər də. Yolçu da dəyişdi bu illərdə, saçlarına qar yağdı, gözlərinin parıltısı, əllərinin hərarəti azaldı, ürəyisə qocalmadı. İllər ötdü, xoşbəxtliyi tapmaq ehtirası bir az da gücləndi yolçuda. "Yolçu yolda gərək" deyib davam etdi yoluna.







Yenə aylar, illər ötdü, sevgilər, ayrılıqlar yaşadı yolçu, uğurlar, uğursuzluqlar sıxdı əlini. Bir az da daşlaşdı ürəyi, bir az da bərkidi əlləri. Və günlərin bir günü... Adi günlərdən birində adi bir adamdan qeyri-adi söz eşitdi: "Sən ki, xoşbəxtlik diyarındasan, bir aşağı baxsana, əyilib götürsənə!". İlahi, ayaqları altındaydı xoşbəxtlik, ...o böyük xoşbəxtlik! Amma onu götürməkçün hökmən əyilmək lazımıydı... Soruşma ki, o, nə etdi? ...Yolçu yoluna davam etdi."(s.15-16)

Bəli, xoşbəxtlik deyilən məfhum adi günlərin birində, eyni zamanda adi bir adamın simasında adamın qarşısına çıxır, yetər ki, bəsirət gözün açıq ola və o xoşbəxtliyi görüb qəbul edə biləsən. Yetər ki, yolçunun timsalında insanın "ayaqları altında olan xoşbəxtliyi" şəstinə sığışdırıb, əyilib yerdən götürməyi bacarasan. Axı eşq həm də insandan yeri gələndə qürurunu sındırmaqla ona qovuşmağı tələb edir. "Aşıqlik işi qıza nə layiq? Sənə tənə edər eybcülər..." deyə Leyliyə öyüd vermək istəyən anasının sözlərində də əslində Eşqin insanın qürurundan enə bilməsinə işarələr əks olunub. Bəli, insanın bir az özündən aşağı, bir az özündən yuxarı ola bilən xoşbəxtliyi qarşısına çıxanda, insan onu götürmək - qəbul etmək iqtidarında olmalıdır. Yoxsa ki, xoşbəxtliyi göyün yeddinci qatından gələn əfsanəvi, mücərrəd formada təsəvvür etmək - "Ağatlı oğlan" şəklində gəlməsini düşünmək yanlış bir düşüncədir. Təəssüf ki, "ayaqlarımız altında olan" xoşbəxtliyi göylərdə axtarırıq. Hicran Hüseynovanın demək istədiyi budur.

Hicran Hüseynovanın şeir çələngindən də bir nümunə gətirib fikrimi yekunlaşdırıram. "Nikbin şeir" adlanan nümunədən oxuyuruq:

Bir gün bu gün də öləcək
başqa ölən günlər kimi.
Ürəyini sıxma belə,
bütün doğulanlar ölür.
Bir gün öləcək bu gün də,
ölüb dünənə dönəcək,
ya böyük, şanlı tarixə,
ya kiçik bir xatirəyə,
nəyə dönəcək nə fərqi?
Öldü, qurtaracaq bu gün
Ölüncə yaşayaq barı,
gəl tələsməyək nahara.
Oturub doyunca baxaq
bu şən, kədərli səhərə.
(s.81-82)

Şairə kimi Hicran xanımın bədii düşüncləri maraq doğurur. "Bu gün" anlayışına bədii-fəlsəfi yozum verən müəllifin həyat haqqında düşüncələri insanı yaşadığımız bu gün haqqında düşünüb-daşınmağa səsləyir. "Bu gün" - ömrümüzdən keçən bir gün deməkdir, gəlin bu bir günün də, eləcə də ömrümüzdən ötən "bu gün"lərin də, yəni hər günün qədrini bilək, dəyər verək ömrümüzə "ya böyük şanlı tarixə, ya kiçik bir xatirəyə, nəyə dönəcək nə fərqi?" -desə də, əslində o "nə fərqi" sualı altında fərqi araşdırmağa çağırır, hər günümüzü canlı tarixə çevirəcəyimizi istəyir. "Ölüncə yaşayaq barı" deyən Hicran Hüseynova ölüncə insan kimi yaşamağı (yaşayıb-yaratmağı) tövsiyə edir. Hicran xanımın sözünün rəngbərəng təbəqələri var. O təbəqələri qatbaqat qaldırıb oxuyanda həyatın maraqlı mənzərələri canlanır təsəvvürümüzdə...

Belə maraqlı yaradıcılıq yollarında Hicran Vaqifqızına yeni-yeni uğurlar arzulayıram.



*Şakir ALBALIYEV,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın aparıcı elmi işçisi*